# QUSAR КЦIАР

20 iyun 2020-ci il
№ 7 (7648)

İCTİMAİ-SİYASİ QƏZET • ИЖТИМАИ-СИЯСИ ГАЗЕТ

gusarpress.com

Qəzet 1932-ci ildən çıxır

TƏSİSÇİ: QUSAR RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ APARATI VƏ REDAKSİYANIN KOLLEKTİVİ


## XƏBƏRLƏR

**1990-ci ildə** istifadəyə verilmiş 420 şagird yerlik Quxuroba kənd tam orta məktəbi o vaxtdan əsaslı təmir olunmamış, binasının idman zalının divarları dağılmış, sinif otaqlarında çatlar əmələ gəlmiş və tədrisin davam etdirilməsinə təhlükə yaranmışdı. Məktəb kollektivinin və kənd sakinlərinin müraciətlərini nəzərə alan rayon icra hakimiyyəti Təhsil Nazirliyi qarşısında məsələ qaldırmaqla binanın əsaslı təmir planına salınmasına nail olmuşdu.

Bu günlərdə təhsil ocağının əsaslı təmiri ilə bağlı görülən işlərlə tanış olan Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov bir qrup müəllim və kənd sakinləri ilə görüşərək onları narahat edən məsələləri də müzakirə etmişdir.

Bildirilmişdir ki, hazırda məktəbdə 342 şagird təhsil alır. Əsaslı təmir və yenidən qurma işlərindən sonra 464 şagirdin təhsil alması üçün müasir tələblərə uyğun şərait yaradılacaqdır. Məktəbin idman zalının dağılmış divarları yenidən tikilmiş, dam örtüyü yenilənmiş və digər təmir işləri görülmüşdür. Hazırda təmir-bərpa işləri davam etdirilir. Məktəb binasının yeni dərs ilinə kimi istifadəyə verilməsi nəzərdə tutulur.

Məktəb kollektivinin və kənd sakinlərinin xahişi məktəbdə aparılan təmir işlərinin tez başa çatdırılması, ərazidə abadlıq işlərinin görülməsi, eləcə də kəndin suvarma suyu ilə təminatı məsələləri ilə bağlı olmuşdur. Sakinlər mart-aprel aylarında havaların quraq keçməsi və suvarma suyu ilə bağlı problemlərin yaşandığını, may ayının ilk günlərindən başlayaraq suvarma suyu ilə tam təmin olunduqlarını bildirmişdir.

**Son** illərdə yay aylarında Qusarçayda suyun azalması və Cağar arxının ətrafında bağ və əkin sahələrinin çoxalması kənd sahələrinin suvarma suyu ilə təminatında problemlər yaradır. Buna görə kəndin aşağı hissəsindən keçən Samur-Abşeron kanalının üzərində sovet dönəmində tikilmiş, 1990-cı illərdə dağıdılmış nasos stansiyası bərpa olunmasına başlanıb.

Nasos stansiyasından kəndə kimi yüksək təzyiqə davamlı diametri 630 mm olan borulardan ibarət 3,8 km-lik su xəttinin çəkilməsi nəzərdə tutulur. Su xəttinin 1,8 km-lik hissəsi artıq çəkilib, daha 1 km-lik boru gətirilib, gücü 450 litr/san. olan 2 ədəd yeni su nasosu və digər avadanlıqlar quraşdırılıb.

Görülən işlərlə yerində tanış olan Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov bir qrup kənd sakini ilə də görüşmüş, onların xahişini nəzərə alaraq görülən işlərin tez bir zamanda başa çatdırılması ilə bağlı əlaqədar şəxslərə öz tapşırıqlarını vermişdir.

**Uzun** müddət quraq keçən hava şəraitindən sonra may ayının ilk günlərində bir neçə gün aramsız yağan yağışlar nəticəsində Qusarçay çayına gələn sel suları Zindanmuruqqışlaq kəndlərini suvarma suyu ilə təmin edən beton kanalının başlanğıcında 1 km-ə qədər hissəsini dağıtmış, Yeni Həyat və Qalacıq kəndlərini suvarma suyu ilə təmin edən arxın çaydan su götürülən hissəsinə və həmin ərazidə tikilməkdə olan fiksator qurğusunu yuyaraq zərər yetirmişdir.

Sel suları çayın daş-çınqıl qatını yuyub aparmaqla Qusar şəhəri ərazisindəki hər iki körpünün dayaqlarının bünövrə hissələrini üzə çıxartmışdır. Xüsusilə 1970-ci ildə inşa edilmiş Qusar-Quba yolunun üzərindəki 110 p/m-lik körpünün lövhələrdən ibarət su istiqamətləndirici bəndinin sel suları tərəfindən aparması və həmin ərazidə çay yatağının 3 metrədən çox aşağı düşməsi nəticəsində körpü üçün təhlükəli vəziyyət yaratmışdır.

Sel sularının yaratdığı fəsadlarla yerində tanış olan Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov hər iki körpünün ərazisində fiksator qurğularının tikintisi, dağılmış beton kanalın bərpa edilməsi və digər məsələlərlə bağlı əlaqədar şəxslərə öz tapşırıqlarını vermişdir.

Sel sularının dağıtdığı arx və kanala müvəqqəti olaraq alternativ yollarla suyun verilməsi bərpa olunmuş, kənd sakinləri suvarma suyu ilə təmin edilmiş, eyni zamanda dağılmış yerlərin əsaslı sürətdə yenidən tikintisi üçün tədbirlərin görülməsinə başlanmışdır.

## TAXIL YIĞIMI BAŞLANDI!



**Rayonumuzun** taxılçıları istehsal göstəricilərini ilbəil yüksəldirlər. Ötən il 26152,5 hektar sahədən 72846 ton taxıl yığılmışdır ki, bu da hər hektardan orta məhsuldarlıq 27,9 sentner təşkil edir. İnişilə nisbətən sahələrdən 18642 ton çox taxıl götürülmüş, orta məhsuldarlıq müvafiq olaraq buğda üzrə 6,0 və arpa üzrə 6,1 sentner çox olmuşdur.

2020-ci ilin məhsulu üçün rayonun təsərrüfatlarında keçən ilin payızında 23621 hektarda, o cümlədən 15957 hektarda payızlıq buğda, 7664 hektar sahədə payızlıq arpa əkilmişdir.

Artıq bir neçə gündür ki, aran zonasında arpa yığımına başlanmışdır. Mütəxəssislər zəmilərdən bol məhsul gözlənildiyini söyləyirlər.

Qəzet çapa imzalanarkən aldığımız məlumata görə 2000 hektardan sahədə arpa biçilmişdir. Hər hektardan orta məhsuldarlıq 25 sentner təşkil edir.

Rayonun kənd əməkçiləri məhsul yığımının tez və itkisiz başa çatdırılması üçün bütün qüvvələrini səfərbər etmişlər. Allah ruzimizi bol eləsin!

## ALMA, ARMUD,...BADAM, QOZ

### *2010-cu ildən bəri rayonumuzda 4990 hektarda yeni, intensiv meyvə bağları salınıb.*

**Rayonumuzda** meyvəçilik tarixən daha çox üstünlük verilən təsərrüfat sahələrindən biri olub. Çünki bölgəmizin təmiz havası və suyu, torpağın münbitliyi meyvəçiliyin inkişafında başlıca amillərdir.

2019-2023-cü illər üçün Azərbaycanda meyvəçiliyin inkişafına dair Dövlət Proqramı hazırlanıb. Proqramın əsas məqsədi meyvəçiliklə bağlı ixrac potensialını artırmaq, əhalinin meyvəyə olan tələbatını tam ödəməkdir. Proqramda məhsuldarlığın artırılması üçün tədricən intensiv bağçılığın genişləndirilməsi nəzərdə tutulub.

Ölkədə olduğu kimi rayonda da mövcud bağlar genişləndirilir, yeni bağlar salınır. Keçmişdə meyvəçilik deyiləndə ancaq alma və armud nəzərdə tutulurdusa, indi müxtəlif çeşidli qələmlərin əkininə üstünlük verilir. 2016-cı ildən bu yana ənənəvi alma (971,4 hektar), fındıq (3487 hektar) bağları ilə yanaşı şaftalı (112 hektar), gilas (1242 hektar), gavalı (26 hektar), qoz (112 hektar), badam (10 hektar), ərik (12,6 hektar), armud (78,8 hektar) bağları salınıb. Əkilən yeni ağaclar isə digər meyvə ağaclarından qısaboylu olması, keyfiyyəti, sulu və tamlılığı ilə fərqlənir.

2010-cu ildən bəri rayonda 4990 hektarda yeni intensiv bağ salınıb ki, bunun 430 hektarı fərdi təsərrüfatçıların payına düşür.

Bu bağlarda məhsuldarlıq yüksək olmaqla yanaşı, zərərverici və xəstəliklərə qarşı da davamlıdır. İstehsal xərcləri isə ənənəvi bağçılıqla müqayisədə intensiv bağçılıqda aşağıdır. Bundan başqa, Dövlət Proqramında ayrıca olaraq gilas, ərik, şaftalı və heyvanın məhsuldarlığının artırılması nəzərdə tutulub. Həmçinin meyvələrin saxlanması üçün yeni soyuducu anbarlar tikiləcək, emal sənayesi inkişaf etdiriləcək, əhalinin məşğulluq səviyyəsinin və gəlirlərinin artırılması istiqamətində tədbirlər görüləcəkdir.

*Rafiq MAHMUDOV,*
*Qusar Rayon Statistika İdarəsinin rəis müavini*





## YAŞAMAQ İMTAHAN, HƏYAT İMTAHAN!

### *XI və IX siniflərinin 1044 nəfər şagirdi karantin rejiminə uyğun şəkildə ilk buraxılış imtahanına qatıldı.*

**İyunun** 10-da rayonumuzda Dövlət İmtahan Mərkəzinin imtahan qrafikinə uyğun olaraq 5 imtahan mərkəzində Azərbaycan dili (dövlət dili) imtahanı. Azərbaycan dilindən fərqli dildə təhsil alan 9 -cu sinif cari ilin məzunları, 9 illik təhsil bazasında kolleclərə ərizəsini rus bölməsi üzrə təsdiq etmiş əvvəlki illərin məzunları və cari ilin məzunları üçün (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış (qəbul) imtahanları keçirilmişdir.

Qusar rayonu üzrə iyun ayının 10-da ümumi təhsil müəssisələrinin XI siniflərin buraxılış imtahanlarında 815 nəfər, təlimi rus dilində aparılan ümumtəhsil məktəblərinin IX siniflərində Azərbaycan dili üzrə (Dövlət dili kimi) keçirilən imtahanlarda ümumilikdə 229 nəfər şagird iştirak etmişdir.

Professor Kərim Kərimov adına Hil kənd tam orta məktəbində imtahanlara hazırlıq və keçirilmə mərhələləri müvəffəqiyyətlə başa çatmışdır. Məktəb imtahan günündən qabaq dezinfeksiya olunmuş və təlimata uyğun olaraq imtahan binası möhürlənərək DİM-in nümayəndəsi tərəfindən təhvil götürülmüşdür.

Buraxılış rejimi yeni qaydalara uyğun şəkildə tənzimlənmiş, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə (xüsusi geyim, əlcək, üz sipəri, tibbi maska) təmin olunmuşdur. İmtahan iştirakçılarına sanitar-gigiyenik tələblərə riayət edərək, pandemiya şəraitinin tələblərinə əsasən yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilmişdir.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan binasının həyətində sırada gözləmək üçün nişanlayıcı xətlər çəkilmiş, buraxılış rejiminin növbə ilə lazımi sosial məsafəni gözləməklə təşkil edilməsinə nail olunmuşdur. İmtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılmış və zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunmuşdur. Professor Kərim Kərimov adına Hil kənd tam orta məktəbində keçirilmiş imtahanda Qusar-Sudur istiqamətində yerləşən 15 kənd tam orta məktəbindən 207 nəfər məzun iştirak etmişdir.

9 illik orta təhsil bazasında kolleclərə qəbul və Azərbaycan dili (dövlət dili) imtahanlarının nəticələri elan olunmuşdur. 11-ci sinif buraxılış imtahanlarında istifadə olunan açıq tipli tapşırıqların yoxlanılması vaxt tələb etdiyindən nəticələrin 3 həftə ərzində elan olunması nəzərdə tutulur.

*"QUSAR"*





## DEPUTAT SEÇİCİLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Bugünlərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Azər Badamovun seçki dairəsindəki ofisində seçiciləri ilə görüşü və qəbulu keçirilmişdir.

Seçicilərin xahişi nəzərə alınaraq onlar deputat tərəfindən təkbətək qəbul edilmişlər. Qəbulda 20 seçici iştirak etmişdir. Müraciətlər əsasən işlə təmin olunma, müalicə, müayinə və sosialyönümlü problemlərlə, fərdi yaşayış evlərinin tikintisi məqsədilə torpaq sahələrinin ayrılmasına köməklik göstərilməsi, müəyyən sosial-infrastruktur layihələrinin icrası və digər məsələlərlə bağlı olmuşdur.

Deputat bütün seçiciləri diqqətlə dinləmiş, müraciət olunan məsələlərin həlli üçün qeydlər apararaq nəzarətə götürmüşdür.

Növbədənkənar parlament seçkiləri ərəfəsi, təbliğat-təşviqat kampaniyası zamanı seçicilər ilə görüşlərdə onlar tərəfindən deputata ünvanlanmış çoxsaylı sual və xahişlərlə bağlı bütün məsələlər qeydiyyata alınaraq həlli istiqamətləri müəyyənləşdirilmişdir.

Qaldırılan məsələlərin bir neçəsi yerində həllini tapmış, bəzilərinin həlli üçün deputat əlaqədar qurumlara rəsmi müraciətlərin ediləcəyini bildirmişdir.



## MÜƏLLİMLƏRƏ ƏRZAQ VƏ PUL YARDIMLARI

Koronovirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısının alınması məqsədilə ölkə rəhbərliyi tərəfindən reallaşdırılan genişmiqyaslı tədbirlərin bir hissəsi olaraq, ehtiyacı olan aztəminatlı ailələrə yardımların verilməsi prosesi davam etdirilir.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Qusar Rayon Komitəsi tərəfindən xüsusi karantin rejimi dövründə sosial müdafiəyə ehtiyacı olan yaşı 65-dən yuxarı olan 115 nəfər əməkdaşa ərzaq paylanmışdır.

Rayon komitəsi tərəfindən həmçinin RTŞnin işçilərinə və şəhər məktəblərində işləyən aztəminatlı təhsil işçilərindən 38 nəfərinə pul yardımları edilmişdir.

Məktəb rəhbərlərinə qoruyucu maska, dezinfeksiyaedici məhlulların alınması üçün pul vəsaitinin verilməsi nəzərdə tutulmuşdur. Həmkarlar İttifaqı üzvlərinə ərzaq və maddi yardım göstərilməsi davam etdirilir.



## "QUSAR KUJAP"IN ÇAPI MÜVƏQQƏTİ OLARAQ DAYANDIRILIR

*Uzun tərəddüddən sonra belə qərarı iki səbəbdən qəbul etdik:*

**1.Maliyyə vəsaitinin çatışmazlığı.** İlin birinci yarısında cəmi 220 nəfər abunəçimiz oldu. İndi oxuduğunuzla bərabər qəzetin 7 sayını çap edə bildik. Əmək haqqı və nəşriyyat borclarımız yarandı.

**2.Pandemiya.** Xüsusi karantin rejimi bütün müəssisələrin, o cümlədən redaksiyamızın normal fəaliyyətinə ciddi təsir göstərib.

Ruhdan düşmürük. Vəziyyətin düzələcəyinə əminik və bu istiqamətdə çalışırıq.

Növbəti 6 ay üçün abunəçilərdən zənglər, sifarişlər gözləyirik.

Bizimlə əlaqə saxlayın: internetdə veb saytımız (qusarpress.com), feysbukda qrupumuz (*"Qusar Kujap"*) fəaliyyətdədir.

**Telefon və vatsap nömrələrimiz: 070.695.02.11 və 050.367.58.22**

# VƏTƏNİN ÇAĞIRIŞINA SƏS VERƏRƏK

## *Türkiyədən çağırılaraq ölkəmizdə REACT-C19 layihəsini həyata keçirən 19 azərbaycanlı həkimdən biri həmyerlimiz Fidan Sultanovadır.*



**Artıq iki aydan artıqdır ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü, Heydər Əliyev Fondu, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB və Səhiyyə Nazirliyinin dəstəyi ilə Azərbaycanın regionlarındakı xəstəxanalarda COVID-19-a qarşı mübarizə tədbirləri ilə əlaqədar əsas bacarıqları gücləndirmək üçün REACT-C19 layihəsi həyata keçirilir. Layihədə Türkiyədə çalışan 19 azərbaycanlı həkim iştirak edir ki, onlardan biri həmyerlimiz Fidan Sultanovadır. Bu qürurverici xəbəri bizə Fidan xanımın babası, qocaman həkim, ağsaqqal ziyalımız Vaqif Abdullayev çatdırdı:**

**-Fidan iki günlüyə evə gəlib,-dedi doktor-hələ tələbə vaxtı haqqında yazmışdınız, indi uzman həkimdir, sizə baş çəkmək istəyir!**

**"-Belə qonağı kim istəməz?"-dedik və Fidanla vədələşdiyimiz vaxtda görüşərək (təbii rejim qaydalarını gözləməklə) söhbətləşdik.**



Fidan Ankaranın Qazi Universitetinin infeksiya xəstəlikləri və klinik mikrobiologiya ixtisası üzrə həkimidir. O, beşinci ildir ki, rezident kimi çalışır. Vətənin çağırışına birincilər cərgəsində səs verən Fidan artıq üçüncü aydır ki, koronovirusla mübarizədə Azərbaycan həkimlərinə köməklik etmək missiyasına qoşulub.

Yaxşısı budur, bunları Fidanın öz dilindən eşidək:

-Layihənin məqsədi COVID-19 xəstələrinin müalicəsi üçün bölgələrdəki seçilmiş xəstəxanalarda COVID-19 ilə bağlı əsas bacarıqları inkişaf etdirmək, bununla da Azərbaycanda koronavirusla mübarizə sahəsində təcrübəli həkim heyəti formalaşdırmaqdır. Həmkarlarım olan infeksionist, pulmonoloqlar və reanimatoloqlar Türkiyənin seçilmiş universitetlərində təlimlər keçməklə sözügedən sahələr üzrə praktiki təcrübə əldə etmiş və müvafiq təlimatlar almışlar.

***-Missiyanız hansı rayonları əhatə edir?***

-Mayın 4-dən etibarən hər birinə 4 həkim daxil olan 4 qrup Gəncə, Goranboy, Ağdaş və Şəmkir olmaqla Azərbaycanın qərb bölgəsindəki 4 xəstəxanada işə başladıq. Mən Gəncədəki xəstəxanada çalışdım. Əsasən ÜST-ün xəstəxana hazırlıq təlimatından istifadə edərək xəstəxanalarda mövcud vəziyyəti dəyərləndiməyə və aşkar olunan problemlərin aradan qaldırılmasına dəstək olmağa, xəstəxanaların hazırlıq səviyyəsinin yüksəldilməsinə, yerli həkimlərlə birgə fəaliyyət planı üzərində işləməyə başladıq. Həmçinin həkimlər və orta tibb işçiləri üçün müxtəlif mövzularda təlimlər keçirdik.

***-Bəs ev ailə üçün darıxmırsan ki?***

-Darıxmıram, desəm, yalan olar. Türkiyədə Azərbaycan, Qusar, burada isə Türkiyə, ailəm, oradakı işim üçün darıxıram. Amma həkimlik sənəti dözüm, fədakarlıq tələb edir. Həyat yoldaşım Əli də həkim-otolorinqoloqdur. O, Hacəttəpə Universitetində cərrah-həkim olaraq çalışır. Telefonla danışır, hal-əhval tuturuq. REACT-C19 layihəsi səhiyyə müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə paralel olaraq fədakarlıqla ön cəbhədə çalışan tibb işçilərimizin davamlı olaraq bilik və bacarıqlarının yüksəlməsi, beynəlxalq təcrübədən bəhrələnməsi və lazımi elmi-texniki dəstəyin alınması üçün çox önəmli dəstəkdir. Bir Azərbaycan vətəndaşı olaraq belə bir layihənin iştirakçısı olmaqdan qürur duyuram.

***-Ölkəmizdə virusla mübarizənin təşkilini necə qiymətləndirirsiniz?***

-Yüksək! Dünya ölkələri ilə müqayisədə şikayətlənməyə haqqımız yoxdur. Amma əhalinin müəyyən olunmuş qaydalara və karantin məhdudiyyətlərinə, sadə sanitariya-gigiyena qaydalarına əməl etməməyi təəssüf doğurur. Fəaliyyətimizi iyunun sonunadək ölkənin müxtəlif bölgələrində davam etdirəcəyik. Əminəm ki, layihənin növbəti mərhələdə icrası uğurla davam edəcək və tezliklə müsbət nəticələrini görəcəyik.

***Söhbətləşdi: Vidadi***

## Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Əhməd İSMAYILOVA

***Hörmətli Əhməd müəllim!*** Bu kollektiv məktubu Sizə ünvanlamağa bizi vadar edən səbəb əyalət mətbuatının bugünkü acınacaqlı durumudur. Çağdaş zamanımızda bölgə mətbuatı ümumilikdə medianın çox vacib, gərəkli bir qoludur. Dərc olunduğu bölgənin ictimai-siyasi, sosial durumunu, sakinlərin uğur və problemlərini, yaşam tərzini işıqlandıran yerli mətbuat əyalətdə yaşayanlar üçün əvəzedilməz, çox dəyərli mənəvi qidadır. Gənclərin əksəriyyətinin böyük şəhərlərə, o cümlədən Bakıya axışdığı bir dövrdə rayonlarda qalan yaşlı insanlar lazım olan informasiyanı onlayn mediadan, paytaxtdan göndərilən 10-15 qəzetdən, müxtəlif saytlardan və TV kanallarından deyil, məhz yerli mətbuatdan almağa üstünlük verirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində bölgələrdə aparılan abadlıq-quruculuq işləri, regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramının icrası, sənaye və kənd təsərrüfatının yüksəlişi barədə reportaj və xəbərlər, oçerk və araşdırma yazılar bu qəzetlərin səhifələrində daim özünə yer tapır.

Məkrli qonşularımızın hələ də torpaq iddiasından əl çəkmədiyi, tariximizi saxtalaşdırmağa cəhd göstərdiyi bir dönəmdə regionun salnaməsini yaradan qəzetlərin bu günümüz və gələcəyimiz üçün əhəmiyyətindən uzun-uzadı danışmağa lüzum duymuruq. Üstəlik bu KİV-lərin hər birində çox az xərclə 5-10 iyirmi xalqın maarifləndirilməsinə xidmət edir. Amma hazırkı durumda bu jurnalistlər də maliyyə sıxıntısı üzündən iş yerlərini itirir, peşələrindən uzaq düşürlər. Bəzi qəzetlər bağlanmaq üzrədir, hətta kağız çapına fasilə verənlər də var. Çünki hər birinin 80-100 illik tarixi olan region mətbuatı taleyin ixtiyarına buraxılıb, diqqət və qayğıdan tamamilə kənarda qalıb.

Qəzetin saxlanması üçün təkcə abunə kifayət etmir və abunə də ilbəil azalmaqdadır. Bölgələrdə fəaliyyət göstərən regional idarə və müəssisələr isə yerli qəzetlərə abunə olmaqdan açıq-aşkar imtina edirlər. Reklam bazarının və əlavə qazanc yerlərinin olmaması da redaksiyaları çətin duruma salıb. 12 il qabaq KİVDF yarananda sevindik ki, bu mənbədən bölgə qəzetlərinin maliyyələşməsi də gerçəkləşəcək. Çünki Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında qeyd olunur ki, bölgələrdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinə müsabiqəsiz maliyyə dəstəyi göstərilir. Amma bu ötən illər ərzində bölgə nəşrləri bir dəfə də yada düşmədi. Sadəcə ildə bir neçə dəfə keçirilən jurnalist yazı müsabiqələrində bölgə əməkdaşlarına da yazdıqları məqalələrə görə mükafat verməklə KİVDF əyalətlə bağlı fəaliyyətini bitirmiş hesab edir. Müxtəlif instansiyalara bununla bağlı göndərdiyimiz məktublar, etdiyimiz şikayətlər heç kimi narahat etmədi. Bəhanələri bu oldu ki, yerli icra hakimiyyəti təsisçisi olduğu qəzetə özü pul ayırmalıdır. Reallıq isə budur ki, bu gün icra hakimiyyəti qəzetlərə maliyyə dəstəyi göstərə bilmir, çünki bu məqsədlə büdcədə vəsait nəzərdə tutulmayıb. Əslində aidiyyatı qurumlar çox gözəl bilirlər ki, heç zaman bu səbəbə görə İH-lər yerli qəzetlərə maliyyə yardımı göstərməyiblər.

Hörmətli Əhməd müəllim! Düşünürük ki, KİVDF-yə sizin gəlişinizdən sonra bu qurumun bölgə KİV-lərinə münasibəti köklü şəkildə yaxşılığa doğru dəyişəcəkdir. Biz region mətbuatının yaşaması üçün lazım olan addımları atacağınıza, bizimlə birgə əyalətdəki qəzetlərə, iş yerini itirmək qorxusu yaşayan jurnalistlərə kömək əli uzadacağınıza inanırıq.

***Hörmətlə:*** **1.Əminə Yusifqızı, "Kür" (Yevlax) qəzetinin baş redaktoru, Əməkdar jurnalist, 2.Fərman Nəbiyev, "Mingəçevir işıqları" qəzetinin baş redaktoru, Əməkdar jurnalist, 3.Rəfiqə Sadıqova, "Gəncənin səsi" qəzetinin baş redaktoru, 4.Baxşeyiş Hətəmli, "Ağdam" qəzetinin redaktoru, Əməkdar jurnalist, 5.Zahir Əmənov, "Cənub xəbərləri" (Masallı) qəzetinin baş redaktoru, 6.Baba Mirzəxanlı, "Region mediası" (Şəki) qəzetinin baş redaktoru, 7.İbrahim İbrahimov, "Zaqatala" qəzetinin baş redaktoru, 8.Qəhrəman Qasımov, "Şəfəq" (Quba) qəzetinin baş redaktoru, Əməkdar jurnalist, 9.İrina Kalaşnikova, "Novosti Gandji" qəzetinin baş redaktoru, 10.Xavər Əfəndiyeva, "Qax" qəzetinin redaktoru, 11.Aytən Əliyeva, "Naftalan" qəzetinin baş redaktoru, 12.İsaməddin Əhmədov, "Əkinçi" (Zərdab) qəzetinin baş redaktoru, 13.Vidadi Sevzixanov, "Qusar" qəzetinin baş redaktoru, Əməkdar jurnalist, 14.Tofiq Yusifov, "Yeni Tərtər" qəzetinin redaktoru, 15.Xuraman Abbasova, "Mübariz" (Goranboy) qəzetinin baş redaktoru, 16.Nazim Hüseynli, "Oğuz yurdu" qəzetinin redaktoru, 17.Akif Salam, "Şəki" qəzetinin baş redaktoru, Əməkdar jurnalist, 18.Mirsədi Daşdəmirov, "Mingəçevir" qəzetinin baş redaktoru, 19.Vahid İsmayılov, "Şəffaflıq" (Şamaxı) qəzetinin baş redaktoru, 20.Hicran Məmmədova, "Yeni Gəncə" qəzetinin baş redaktoru, 21.Elçin Məmmədov, "Göyəzən" (Qazax) qəzetinin baş redaktoru, 22.Şahməmməd Soltanov, "İsmayıllı xəbərləri" qəzetinin baş redaktoru, 23.Azər Əhmədov, "Yeni Samux" qəzetinin redaktoru, 24.Murad Nəbibəyov, "Şəki bələdiyyəsi" qəzetinin baş redaktoru, 25.Çingiz Qəribli, "Tovuz" qəzetinin baş redaktoru, 26.Abdulla Əliyev, "Göyçay" qəzetinin baş redaktoru, 27.Varis Yaqubov, "Qəbələ" qəzetinin redaktoru, 28.Könül Məmmədova, "Şirvan"qəzetinin redaktoru, 29.Yalçın Pənahov, "Ağsu" qəzetinin redaktoru, 30.Salman İsmayılov, "Bərdə" qəzetinin redaktor əvəzi, 31.Elmar Əliyev, "Daşkəsən" qəzetinin baş redaktoru, 32.Zinyət Yaqubqızı, "Xaçmaz" qəzetinin redaktoru, 33.Xuraman Hüseynova, "Hacıqabul" qəzetinin baş redaktoru, 34.İlyas Qasımov, "Şəmkir" qəzetinin baş redaktoru, 35.Səbuhi Vəliyev, "Ucar" qəzetinin redaktoru, 36.Tofiq İsayev, "Ağdaş" qəzetinin baş redaktoru, 37.İbrahim Əliyev, "Ağstafa" qəzetinin baş redaktoru, 38.Bənövşə Məmmədova, "Göygöl" qəzetinin redaktoru, 39.Əsədulla Cəfərov, "Qızıl Gədəbəy" qəzetinin baş redaktoru.**

# ГУЬГУЬЛ, ВУЧИЗ ПАШМАН Я ВУН, ЗУЛУН РАГЪУЛ ЦИФЕР ХЬИЗ...



*Кхьизвай цIарара хайи чIалан атир хьиз, руьгь хьиз, дуьа хьиз вич акваздвай Риммадин поэзияди кIелзавайдаз мичIерикай яргъа, экуь уьмуьрдиз эвер гузва. Кьиляй-кьилиз фагьум тир, кьатIун тир зари уьмуьрдал, накьвадал, чIалал шаир хьиз, шиир хьиз, мани хьиз ашукь я. Ада саки кхьизвач, хразва. Гьавиляй Риммадин туькIуьррунра поэзия кьакьанвилин вини кьиле акваздва.*

*Уьмуьрдин 60 лагьай кIарцIелай кьуд патаз вил вегьизвай зариди юбилей мубарак хьурай, чандин сагъвал, цIийи агалкьунар хьурай.*

## ЭКУЬНИН ХИЙИР!

Экуьнин хийирар, экуьнин хийир!
ГьикI я ви гьалар, я кьуьзуь дуьня?
Хийирар гвани вав, тахьайтIа шийир,
Гагь вун хъуьреда, гагь аси дуьня!

Экуьнин хийирар, я Рагъ, иерди!
Чинавай мили хъвер галат тийирди!
Я вун мичIи йифер экуь хъийирди,
Жувалай я хьи вун гьей рази, дуьня!

Экуьнин хийирар, эй кьакьан цавар!
Алаха дуьнядал ви вили навар,
Уьмуьрдин алатай бахтавар чIавар
ВутI хьана, гьинва вун, гьинва зи дуьня?

Экуьнин хийирар, зи гуьгьуьл, зи рикI,
Гьикьван генг я ви хияларин ник!
Гьихьтин йикъар кума уьмуьрдин вилик,
Уьмуьрдин кIвенкI я вун, гагь веси дуьня!

Экуьнин хийирар, рикI алай цуькver,
Хъуькъверал экуьнин чиг алай цуьквер,
Иерда зи хуьруьн жигъирар, рекьер!
Иерда ви кхьин, ви "язи" дуьня!

## УЬМУЬР

Къадир хьуй ваз гьар са йикъан, акI жемир хьи,
пар я уьмуьр,
Каинатдин вахтуникай ваз атIанвай кIар я уьмуьр.

Дуьшуьшдин кар туш гьар инсан къвезва
винел и дуьнядин,
Аллагьди ваз гьакI са герен бахш авунвай вар я уьмуьр.

РикIе авай мурадар ви са-сад кьилиз акъуд вуна,
Амукьайдахъ шехьни мийир, бес жедай туш,
дар я уьмуьр.

Эй Римма, вун ашукь хьана и дуьнядин гьар са чинал,
Даим лугьуз:цавари вав кхьиз тазвай цIар я уьмуьр.

## ЯР ЯТIА ВУН...

Яр ятIа вун, зи бахтуниз на ягъанвай яр гьинава?
На хиве кьур зи уьмуьрдин йикъараллай зар гьинава?

Алцур хьана яд ксарин гафарал вун, дигишна рехъ,
За ваз кхьей пак ашкъидин муьгьуьбатдин
ччар гьинава?

Чаравилин дерт эхна за, йисар фена сузайривди,
Чир жеда ваз зун акурла, тIурфан гьина, хар гьинава.

Кьунач хабар зи гьалдикай, чарадакай яр кьуна на,
"Сейли" лугьуз ишедай вун, бес гила и тIвар гьинава?

***

Йифиз-юкъуз рахазва вун, ахвар атIай къари ян, гьуьл?
Дерт авани, эхиз тежер, даима ви тIазва гуьгьуьл?

Свас ятIа вун, руш ятIа вун кканидавай къакъатнавай,
Шехьирдалди гьуьл хьанва вун, кIватIнава
на накъвар туькьуьл.

Гагь и кьере, гагь а кьере акьазва ви гур лепеяр,
Вучиз ятIа секин тушир хиялар хьиз хьанва къегьуьл.

Рахух жуван дердерикай, яб гуда за, сабур я зун,
Ацукьда зун ви кьерел тек, ягъ Риммадиз
дерт гвай куьсуьл...

***

Гуьгуьл, вучиз пашман я вун, зулун рагъул цифер хьиз,
Сас-сараваз зурзазва вун хъуьтIуьн мекьи йифер хьиз.

Гагь шад я вун, гагьни накъвар сел хьиз гьазур авахьиз,
Аквазвани ваз и уьмуьр гьакIан ичIи сефер хьиз?

АкI жемир ваз агъзур сарлай хкведа вун рикIерал,
Пачагь хьайи мисирви руш иер Тити Нефер хьиз.

Кьве чин алай и дуьнядал мягьтел ама, Римма, вун,
Кьулан вацIу кьве пайнавай чи Кьиблени Кефер хьиз.

## КЕСИБ АБДУЛЛАГЬАЗ

Къулай уьмуьр хьанач, шаир,
ваз несиб,
Гъам квайд хьана ви ряденар, нисинар.
Гана жуваз дамах квачир
тIвар Кесиб,
Тунва на чаз куьтягь тежер хазина.

Гъахъ гафуни гапурди хьиз атIана,
Хци жеда ал нурар хьиз гьахъ тир гаф.
Ви душманар тIварар квахьна, ктIана,
Ви тIвар ама чи рикIера михьи, саф.

Атанвай вун зулуматдин душман яз,
Зулуматдиз душман я хьи, экуь нур.
Агь, фена вун и дуьнядлай пашман яз,
Амукьнава улубра ви рикIин нур.

Къвекъвезва чун къе вун къвекъвей
гелерик.
КIватIзава ви жавагьирар хтар хьиз.
Къе ви шиир поэзиядин мелерик,
Авахьзава булахдин саф ятар хьиз.

## Я БАХТАВАР ИЕР ГАД

Я бахтавар иер гад,
Атанва вун иер мад!
Булушка я гар галай,
Йикъар я вун зар алай.

Ахвар галай вил я вун,
Галатнавай гьил я вун,
Къайнар гуьне, пел я вун,
Йимиш алай хел я вун.

Ви пенжеррин хур ахъа,
Ахайнаваз генг яха,
Ви рак ахъа тайбатай,
Шагьварар къвез гьар патай.

ЧIигьичIигъдин цIирцIирар,
Рагъ дидедин цIарц1арар,
Хьар кутунван цавара?
Хъсан чIав я авара!

Къекъуьгъ жуваз кканивал,
Хас я, гад, ваз къенивал!
Ви вилерин виливал,
Ви гуьгьуьлдин миливал,

Туракь йикъар ккан я заз,
КIвачик бегьер галай свас,
Я бахтавар, иер гад,
Атанва вун иер мад!

## ЯРАБ ВУЧИЗ ИКI ЯТIА?

Къацу хьана гуьлуьшан я гьар са пад,
Рагьни хъурез нялалди , шад я, шад!
Яраб вучиз икI ятIа?
-Гад я, гад!

Илигнава чпин хьипрен манидал
Вирин кьере хьипери,
Ава жеди абур вире вишни къад!
Яраб вучиз икI ятIа?
-Гад я, гад!

ЧIулав хьана ччир хъижезмач
ГъвечIи гада, ягъайтIани
адан ччиниз гьикьван яд...
Яраб вучиз икI ятIа?
-Гад я, гад!

Гьар са гъенел чрунарни ргунар:
Багьди гьанва пIиниярни тутни хват!
Яраб вучиз икI ятIа?
-Гад я, гад!

Ччепелукьри кьуьлерзава иер валс,
Карнавал ян, сувар яни, я парад?
Яраб вучиз икI ятIа?
-Гад я, гад!

# MUSİQİ İLƏ YAŞAYAN VƏ YAŞADAN

*Təbrik edirik!*



**Musiqi** bütün insanların eyni dildə danışdığı yeganə vasitədir. Paytaxtda, əslən aşağıləgərli Əbdülhəlim kişinin ailəsində dünyaya göz açan balaca Sədaqəti də belə xoşbəxtlikdən məhrum etmədilər. Onu Bakıdakı 17 saylı musiqi məktəbinin skripka sinfinə qoydular. Amma bir müddətdən sonra musiqinin Sədaqətdən ötrü adi hobbi olmadığı üzə çıxdı. Skripkanın dühası hesab olunan Nikkolo Paqanini deyirdi: "Mən musiqi ilə yaşayıram. Bütün hiss etdiklərimi-duyğularımı, arzularımı musiqiyə köçürürəm". Sədaqət üçün də musiqi, skripka həyatın ayrılmaz atributuna çevrilmişdi.

Əvvəl Asəf Zeynallı adına Musiqi Məktəbini, sonra Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirən Sədaqət xanım pedaqoji fəaliyyətinə Lənkəran Şəhər Musiqi Texnikumunda müəllimliklə başladı. Daha sonra Bakıya qayıdaraq 10 ilə yaxın bir müddətdə 22 saylı Musiqi Məktəbində skripka ixtisası üzrə müəllim, orkestr şöbəsinin müdiri vəzifəsində çalışdı.

Tale ona ata yurduna dönmək, qusarlı yeniyetmələrdə bu ecazkar musiqi alətinə həvəs oyatmaq, onları dörd simin tilsiminə salmaq missiyasını hazırlamışdı.1993-cü ildə ailəsi ilə Qusara köçən Sədaqət Səfərova 5 il Aşağı Ləgər məktəbində nəğmə müəllimi işlədi. 1998-ci ildə isə Qusar Rayon Uşaq İncəsənət Məktəbinə ixtisası üzrə müəllim qəbul olundu.

Sədaqət xanımın kollektivə gəlişi məktəbin yaradıcılıq atmosferinə yeni nəfəs, işgüzar ab-hava gətirdi. Tezliklə skripka kimi ecazkar alətin həvəskarları artdı, təcrübəli müəllimin yetirmələri müxtəlif yarış və müsabiqələrə qatılaraq yüksək nəticələrə imza atmağa başladı. Sədaqət xanım sevimli müəllimlərinə olan məhəbbəti bu peşəyə yiyələnməklə sübuta yetirən Kifayət Mehdiyeva və Əlfiyyə Rüstəmovanın, respublika müsabiqəsinin laureatı adını qazanan Aytən Müslümovanın, Bakı Musiqi Akademiyasının son kursunda təhsil alan Şalbuz Əhmədovun uğurları, sadəcə öz övladlarına musiqi duyumu aşılayan yüzlərlə keçmiş şagirdinin xoşbəxt ailəsi ilə öyünür, qürurlanır.

Sədaqət Səfərova özü də mehriban bir ailənin xanımı, iki oğul anası, üç nəvənin sevimli nənəsidir. Cəmiyyətimizə, Vətənimizə layiqli vətəndaş, gərəkli peşəkar kimi böyüdüb tərbiyə etdiyi övladları- Anar və Ayaz ali təhsilli mütəxəssislər, ailə sahibidirlər.

65 illik yubileyini keçirən həmkarımızı ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, ailə xoşbəxtliyi diləyirik.

*Rayon uşaq incəsənət məktəbinin kollektivi*

# МЕГЬАМЕДАН АГАЛКЬУНАР

## адан медалрин кьватида яхцIураз мукьва мукафат ава

**Гунар** КцIар райондин Хьилар хуьряй тир Мегьамед Гьажиеван цIувад яш цIинин августдиз тамам жеда. Анжах и агакьнавай гадади спортда гьиликнавай агалкьунри уьмуьрзавай Волгоград шегьердилай къерехрани ван акъуднава.

Кьисметди гзаф лезги хизанар хьиз Гьажиеварни гъурбатдиз акъудна. Мегьамедан буба Азер хьиливи, диде Дилара сумгаитви я. Волгадин къерехдаллай къагьриман шегьерда лабар вегьена мескен кутунвай и хизанда мад са гада ва пуд руш чIехи жезва.

Лезги жен, спортдилай яргъал акъвазин? Мегьамедан гьеле 6 яшни тахьанамаз бубади ам "Олимпия" тIвар алай спортклубдиз тухвана. Адан бахтуни тренер патайни гьана. Каратедин секцияда машгъул жез гатунай лезги гада дагъустанви, вирихалкьрин дережадин спортдин устIар, са шумуд гьилерда зурба турниррин гьалиб, 3-дан чIулав чIулун сагьиб Шамил Ашуралиева шакIуртвилиз къачуна.

Тренерди адаз са йис алатунни вичин алакьунар татамидал синагъдай акъуддай ихтияр гана. Мегьамед 8 яшинда Волгоград шегьердин ва вилаятдин, 9 яшинда уьлкведин спортдин клубрин чемпион, Элиста ва Магьачкъала шегьерра кьиле фейи чемпионатрин гьалиб хьана. Санлай къачурла адан медалрин кьватида яхцIураз мукьва мукафат ава.

Гьа са чIавуз спортклубдин регьбервили адал каратедай 3-категориядин акъажунрин судявални ихтибарна. Пешекарар



Мегьамедан и хиле алакьунрилайни рази амукна ва адаз талукь сертификатни гана.

Чи дуьня къалабулухдик кутунвай коронавирусдин тIугъвалди арадал гьанвай четин гьалар себеб яз исятда мектебра тарсар хьиз, спортдин акъажунризни ара ганва. Анжах Мегьамед бекар акъвазнавач, вичин тренеровкаяр давамарзава. Гьеле бицIекзамаз турниррикай сада Мегьамедан алакьунриз килигна "викегьвала, ватанэгьли!"-лагьай машгьур дагъустанви Гьабиб Нурмегьамедов кумир ва чешне гьисабзавай жегьил лекьрен мурад мадни кьакьан синер рам авун я.

Агалкьунар хьурай вахъ, хьиливидин гада!

*"КЦIАР"*

# MÜHÜM ƏHƏMİYYƏTLİ YOL YENİDƏN QURULUR

## *Azərbaycan-Rusiya Federasiyası dövlət sərhədində "Xanoba" və "Samur" sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolu yenidən qurulur.*

Yolun uzunluğu 23,5 kilometr olan hissəsinin 4 zolağa genişləndirilməsi işlərinə cari ilin əvvəlindən başlanılıb. Hazırda mövcud örtüyün sökülməsi, torpaq yatağının təbii relyef səviyyəsinə qaldırılması və genişləndirilməsi, yol kənarındakı kommunikasiya xətlərinin yerlərinin dəyişdirilməsi işləri görülür. Layihəyə əsasən, sözügedən yol Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 1-ci texniki dərəcəyə uyğun olaraq yenidən qurulur. 4 hərəkət zolaqlı olacaq yolun ümumi eni 22 metr, hərəkət hissəsi 18 metr təşkil edəcək. Dövlət başçısının sərəncamına əsasən Agentliyə ilkin olaraq 30 milyon manat ayrılıb.

Qusar və Xaçmaz rayonları ərazisindən keçən yol yenidən qurulandan sonra sərhəd-keçid məntəqələrindən Rusiyaya gedib-gələn, həmçinin ətraf ərazidə yaşayan sakinlər rahatlıqla istifadə edə biləcəklər.



Tikinti işləri çərçivəsində yol ötürücü körpülərin, kəndlərarası yeraltı keçid, müxtəlif diametrlərdə beton suötürücü tikintisi aparılacaq.

"Xanoba" və "Samur" sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolunun yenidən qurulmasının 2020-ci ilin sonuna kimi yekunlaşdırılması nəzərdə tutulub.

# YOL: HƏR KƏSİN ÖZ MƏSULİYYƏTİ

## *Yazını yol hərəkətinin iştirakçısı olan velosipedçinin hüquq və məsuliyyəti məsələlərinə həsr etməyi qərara aldıq.*



Yol hərəkətinin təhlükəsizliyi fəsillə də sıx əlaqədardır. Qış və payız aylarında nəqliyyatın hərəkətini qar, yağış, yolların buz bağlaması və sürüşkənliyi çətinləşdirirsə, yay nəqliyyat vasitələrinin çoxluğu, sıxlığı, mexaniki hərəkət vasitələrinin, kənd təsərrüfatı maşın və qoşqularının hərəkət iştirakçıları cərgəsinə əlavə olunması ilə fərqlənir.

İlin ötən dövrü ərzində rayon ərazisində baş vermiş 13 yol nəqliyyat hadisəsində 2 nəfər dünyasını dəyişmiş, 16 nəfər xəsarət almışdır. Hadisə iştirakçılarından 3 nəfəri piyada, 1 nəfəri velosipedçidir.

Bu yazını bilavasitə yol hərəkətinin iştirakçısı olaraq velosipedçilərə, onların hüquq və məsuliyyəti məsələlərinə həsr etməyi qərara aldıq. Çünki rayonumuzda nəqliyyatın bu növü getdikcə populyarlaşır, həvəskarların sayı artır. Bu, çox sevindirici, təqdir, təbliğ olunmalı haldır. Çünki velosipeddən istifadənin insan sağlamlığına və ətraf mühitə faydaları sübuta ehtiyacı olmayan bir gerçəklikdir. Avropa alimləri tərəfindən aparılan tədqiqat nəticəsində velosipeddən istifadənin xərçəng və infarkt riskini iki dəfə azaltdığı məlum olub.

Amma məsələnin digər tərəfi-yol hərəkətinin təhlükəsizliyinin qorunması da var. Azərbaycanda Avropada mövcud tarixi təcrübənin olmaması, xüsusən yay aylarında artan həvəskar və professional velosipedçilərlə bərabər ölüm və xəsarətalma halları da çoxalır.

Bilmək vacibdir ki, yol hərəkətinin iştirakçısı olaraq velosipedçilər yol nişanlarının, işıqforun, yoldakı xətlərin hamısının tələblərinə riayət etməlidirlər. Əgər yolda velosiped zolağı varsa, ora ilə, yoxdursa, yolun sağ kənarı ilə getməli, ikinci yola çıxmamalıdırlar. Dörd zolaqlı yolda qoşa xətt varsa, orda geriyə dönməməlidirlər. Bir də onu qeyd edim ki, avtomagistralda velosiped sürmək olmaz.

Hələlik respublika ərazisində velosiped zolaqlarının çəkilməsi praktikası yoxdur. Ümumiyyətlə, şəhər mərkəzində bu praktikanın tətbiqi çətindir. Çünki küçələrin darlığı buna imkan vermir.

Qanunvericilikdə velosipedçilərlə bağlı maddələri nəzərinizə çatdırmaq istəyirik: *1.Mexaniki nəqliyyat vasitəsi sürücüsünün vəzifələri.* 11) yol hərəkətinin ən müdafiəsiz iştirakçılarının-uşaqların, əlillərin, velosipedçilərin və qocaların təhlükəsiz hərəkətini təmin etmək üçün mümkün olan bütün tədbirləri görməli, küçəni keçən kor piyadanın siqnalı ilə (siqnal - ağ əsanın qaldırılmasıdır) nəqliyyat vasitəsini dərhal dayandırmağa borcludur; *2.Velosipedçinin vəzifələri.* Mühərriksiz velosipedi idarə edən şəxs xüsusi velosiped zolaqları ilə, bunlar olmadıqda isə yolun, küçənin hərəkət hissəsinin kənarı və ya yol çiyinləri ilə hərəkət etməli və bunun üçün: 1) texniki cəhətdən saz və lazımınca təchiz olunmuş velosipeddən istifadə etməlidir; 2) velosipedi idarə etməyə mane olan yük və ya sərnişin daşımamalıdır.

*3.Hərəkətə başlama, manevr etmə.* IV. Sürücü yola bitişik ərazidən (yolun hər iki tərəfinə bitişik olan və nəqliyyat vasitələrinin birbaşa hərəkəti üçün nəzərdə tutulmayan torpaq sahələri və orada yerləşən həyətlər, yaşayış massivləri, avtomobil duracaqları, yanacaqdoldurma məntəqələri, müəssisələr və başqa obyektlər) yola çıxarkən, yolda gedən nəqliyyat vasitələrinə və piyadalara, yoldan kənara çıxdıqda isə, hərəkət yolunu kəsən piyadalara və velosipedçilərə yol verməlidir.

"Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın əsas istiqamətlərinə uyğun olaraq velosipeddən istifadənin təşviqi, bunun üçün şəhərdə uyğun infrastrukturun-velosiped yollarının, zolaqların yaradılması Agentliyin qarşıdakı illərdəki əsas fəaliyyət planına daxil edilib.

Hələlik isə mövcud qanunvericiliyə riayət edək, malik olduğumuz yol infrastrukturun imkanlarından maksimum yararlanaq: həm maşın sürücüləri, həm velosipedçilər, həm də piyadalar!

***Natiq MÜZƏFFƏROV,***
***Qusar RPŞ DYPB-nin baş dövlət avtomobil müfəttişi, polis mayoru***

# Nurmət İmaməddin oğlu Zəkiyev



Rayon ictimaiyyətinə ağır itki üz vermişdir. Qocaman müəllim, 70 ilə yaxın davam edən pedaqoji fəaliyyəti dövründə minlərlə yeniyetməyə biliklərin sirlərini öyrədərək müstəqil həyata vəsiqə verən təcrübəli pedaqoq Nurmət İmaməddin oğlu Zəkiyev ömrünün 94-cü ilində vəfat etmişdir.

Nurmət Zəkiyev 1927-ci il dekabrın 25-də Əniğ kəndində anadan olub. Orta məktəbi Qusar şəhərində başa vurduqdan sonra əvvəl Quba Dövlət Müəllimlər İnstitutunun tarix-filologiya fakültəsini, 1950-ci ildə isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat şöbəsini bitirib. Pedaqoji fəaliyyətinə 1950-ci ildə Qusar Uşaq Evi nəzdindəki yeddiillik məktəbdə dil-ədəbiyyat müəllimi kimi başlayan Nurmət Zəkiyev sonra ilk təhsil aldığı doğma Əniğ kənd məktəbində, 1954-1955-ci illərdə təlim-tərbiyə işləri üzrə direktor müavini kimi Hil kənd orta məktəbində, 1955-1963-cü illərdə inspektor olaraq təhsil şöbəsində, 1965-1968-ci illərdə direktor vəzifəsində çalışmaqla şəhər internat məktəbində davam etdirmişdir. O, 1968-ci ildən təqaüdə çıxanadək şəhər 1 saylı orta məktəbində-əvvəl tərbiyə işləri üzrə direktor müavini, sonra həm də Azərbaycan dili və ədəbiyyatı müəllimi olaraq çalışmışdır.

1963-cü ildə rayon partiya komitəsinin qərarı ilə "Qızıl Qusar" qəzetinə redaktor müavini təyin olunsa da, paralel olaraq Qusar şəhər fəhlə-gənclər məktəbində pedaqoji fəaliyyətini də davam etdirmişdir.

Nurmət Zəkiyevin pedaqoji sahədə uğurlu fəaliyyəti 1963-cü ildə "Qabaqcıl maarif xadimi" döş nişanına, SSRİ Maarif Nazirliyinin Fəxri fərmanına layiq görülmüş, Azərbaycan Respublikası Prezidentinin 3 oktyabr 2007-ci il tarixli sərəncamı ilə ona Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adı verilmişdir.

Təhsilimizin inkişafında əvəzsiz xidmətləri olan Nurmət Zəkiyevin nurlu xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

***Qusar Rayon Təhsil Şöbəsi,***
***ATİAHİ-nın Qusar Rayon Komitəsi***

# İdris İdris oğlu Şeydayev



Rayonumuzun təhsil ictimaiyyətinə ağır itki üz verib. Qocaman müəllim İdris İdris oğlu Şeydayev vəfat etmişdir.

İdris Şeydayev 25 dekabr 1933-cü ildə Xuluq kəndində kolxozçu ailəsində anadan olmuşdur. Kənd yeddiillik məktəbini bitirdikdən sonra təhsilini Qusar şəhərində davam etdirmiş,1950-ci ildə Quba Pedaqoji Texnikumuna daxil olmuşdur. Ordu sıralarından tərxis olunduqdan sonra təhsilini Şamaxı Pedaqoji Texnikumunda davam etdirərək oranı bitirmiş, Maarif Nazirliyinin təyinatı ilə Xaçmaz rayonuna göndərilmişdir. İdris Şeydayev rayonun Nizoba və Xudat şəhər 2 nömrəli orta məktəblərində müəllim vəzifəsində işləmişdir.

Təyinat müddəti bitdikdən sonra doğma rayona dönərək Qusar Şəhər İnternat Məktəbində tərbiyəçi, sonralar rus bölməsi üzrə direktor müavini-dərs hissə müdiri vəzifələrində işləmişdir. İşləməklə yanaşı təhsilini qiyabi yolla davam etdirmiş, Mahaçqala Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakultəsini bitirmişdir. İdris Şeydayevin pedaqoji fəaliyyəti mühüm hissəsi təqaüdə çıxanadək çalışdığı Qusar şəhər 3 nömrəli orta məktəbi ilə bağlı olmuşdur.

İşgüzar, bacarıqlı müəllimin əməyi yaxşı işinə və ictimai işlərdə fəal iştirakına görə rayon rəhbərliyinin, rayon təhsil şöbəsinin fəxri fərmanları, mükafat və hədiyyələri ilə dəyərləndirilmişdir.

İdris Şeydayevin işıqlı xatirəsi uzun illər onu tanıyan və sevən insanların yaddaşında qalacaqdır.

***Qusar Rayon Təhsil Şöbəsi,***
***ATİAHİ-nın Qusar Rayon Komitəsi***

Qusar Rayon AİK-nin 12.05.98-ci il tarixli 7/4 saylı və Məhkəmənin 16.04.06 tar. 2-151 saylı qətnaməsi ilə Qusar rayonunun Kuzun Qışlaq kənd sakini Yüzbəyova Qızılgül Canmirzə qızının adına verilmiş JN 331, Kod 30117018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 16 iyun 1998-ci il tarixli 10/7 saylı qərarı ilə Qusar rayonunun Aşağı Ləyər kənd sakini Tağıyev Ənvər Talıb oğlunun adına verilmiş JN 440 A, Kod 30100018 olan Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar rayonunun Kuzun-Qışlaq kəndində yerləşən Balayev Məmmədbağır Baləhməd oğluna məxsus fərdi yaşayış evinin qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar rayonunun Kuzunqışlaq kəndində yerləşən Abuyev Ciyər Ciyər oğluna məxsus fərdi yaşayış evinə dair qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 29.10.97 tarixli 15/1 və Qusar r. Məhkəməsinin 11.04.06 t. 2-158 saylı Qətnaməsi ilə Qusar rayonunun Gündüzqələ kənd sakini Rəsulov Ağaşirin Möhübəli oğluna və ailə üzvlərinə verilmiş JN 359, Kod 30107038 olan Torpağa mülkiyyət huququna dair Dövlət aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 14.07.2000 tarixli 08/03 saylı qərarı ilə Qusar rayonunun Düztahir kənd sakini İbrahimova Zalikə Xanəhməd qızına və ailə üzvlərinə verilmiş JN 160 , Kod 30112018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

MİHİ Qusar Rayon Komitəsi və XRMİ-nin Qusar rayonu üzrə nümayəndəsi David İbramxəlilov Qusar MKS-in direktoru Zahir Mustafayevə yaxın qohumu
**Firudin Mustafayevin**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

MİHİ Qusar Rayon Komitəsi və XRMİ-nin Qusar rayonu üzrə nümayəndəsi David İbramxəlilov Qusar Dövlət Rəsm Qalereyasının direktoru Nərminə Salmanovaya qayınatası
**Tacəddin Salmanovun**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

MİHİ Qusar Rayon Komitəsi və XRMİ-nin Qusar rayonu üzrə nümayəndəsi David İbramxəlilov Qusar Uşaq İncəsənət Məktəbinin müəllimi Vidadi İsrafilova qayınanası
**Gülyaz xanımın**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

MİHİ Qusar Rayon Komitəsi və XRMİ-nin Qusar rayonu üzrə nümayəndəsi David İbramxəlilov el sənətkarı mərhum Aşıq Nüsrətin həyat yoldaşı
**Bəsərxanımın**
vəfatı ilə əlaqədar ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Direktor Arif Xəlilov şəhər 1 saylı məktəbin pedkollektivi adından iş yoldaşları Lətifə Balakişiyevaya, qaynatası
**Nurmət Zəkiyevin**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Vidadi Sevzixanov "Qusar" qəzetinin kollektivi adından MKS-nin direktoru Zahir Mustafayevə yaxın qohumu
**Firudin Mustafayevin**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Direktor Zahir Mustafayev MKS-nin kollektivi adından Qusar Dövlət Rəsm Qalereyasının direktoru Nərminə Salmanovaya qayınatası
**Tacəddin Salmanovun**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Baş direktor Mübariz Zeynalov MRX-nın kollektivi adından qocaman həkim
**Tacəddin Salmanovun**
vəfatı ilə bağlı ailəsinə dərin hüznlə başsağlığı verir.


| Baş redaktor Vidadi SEVZİXANOV | Hesab № "Kapitalbank"da: AZ 88 AİİB 33010019444800204148. VÖEN 4700063311. | Tiraj 500 Sifariş 1592 Qiyməti sərbəst. | "Qusar"ın kompüter mərkəzində yığılaraq səhifələnib, "Azərbaycan" Nəşriyyatında çap olunub. | Ünvan: AZ.3800, Qusar şəhəri, Fəxrəddin Musayev küçəsi 41. ☎☎ 385-23-83; 385-23-86; qusar-redak1@mail.ru |
|---|---|---|---|---|